# Azərbaycan Respublikası Xalq Parlamentinin təsis edilməsi haqqında BƏYANNAMƏ

**Azərbaycan Respublikasının vətəndaşlarına**

BMT Baş Katibinə və Təhlükəsizlik Şurasına,

Avropa Şurasının Baş Katibinə və Parlament Assambleyasına,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT),

ABŞ, Avropa İttifaqı (Birliyi) və digər ölkələrin başçılarına və parlamentlərinə

Hörmətli xanımlar və cənablar!

Biz - Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən qanunsuz təqiblər nəticəsində ölkəni tərk edib Avropa ailəsinə və dünyanın müxtəlif dövlətlərinə sığınan, eləcə də Azərbaycan Respublikasındakı **mütləqiyyət** rejimində basqı, təqib və təhlükə altında yaşayan, hüquqları hər addımda tapdanan Azərbaycan vətəndaşları

7 fevral 2024-cü il tarixli prezident seçkilərinin və 1 sentyabr 2024-cü il tarixli parlament seçkilərinin total saxtalaşdırılaraq hakimiyyətin mənimsənilməsindən sonra

**Nəzərə alaraq ki:**

- Azərbaycan Respublikası Konstitusiyasının 6-cı maddəsinin I hissəsində nəzərdə tutulan "Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz" prinsipi pozulub, bir qurup şəxs tərəfindən hakimiyyət mənimsənilib və xalqa qarşı, həmin maddənin II hissəsində nəzərdə tutulan, ən ağır cinayət baş verib.

- Saxta seçkilər nəticəsində formalaşan icra və qanunverici hakimiyyətlər Konstitusiya və qanunlara ziddir və bu seçkilərin nəticələri tanına bilməz.

- Konstitusiya ilə respublika üsül - idarəsinə malik olan ölkəmizdə son 31 il ərzində saxta prezident və parlament seçkiləri ilə hakimiyyət zəbt edilərək, dövlətimiz mütləqiyyət rejimində idarə edilir.

- Ölkədə qanunverici, icraedici, məhkəmə hakimiyyəti faktiki olaraq bir əldə cəmləşib.

- Son 31 ildə minlərlə vətəndaşımız siyasi məhbus taleyi yaşamışdır. Bu gün də ölkəmizdə beynəlxlaq hüquq-müdafiə təşkilatları tərəfindən tanınan 300-dən çox siyasi məhbus vardır.

- Müxalif fikirli vətəndaşlarımız adi insan hüquqlarından məhrum edilir, onlara əmək hüquqları, təhlükəsiz yaşamaq, ədalətli mühakimə olunmaq və azadlıq hüquqları tanınmır, bu şəxslər öz vətənlərini tərk etmək məcburiyyətində qalırlar.

- Yeraltı və yerüstü sərvətlərimiz qeyri-şəffaf şəkildə, xalqın iradəsindən kənar formada, heç bir qanuni nəzarət mexanizmi olmadan, bir qrup şəxs tərəfindən mənimsənilir.

- Ölkədə aktiv siyasi fəaliyyət, tənqidçi jurnalistika, insanların öz dini və insani hüquqlarını müdafiə etməsi, milli azlıqların öz mədəni hüquqları istiqamətində fəaliyyəti, faktiki olaraq, mümkünsüz hala gətirilib: insanların qanuni hüquqları boğulur, bu kimi fəaliyyətlərdə prinsipial aktivlik göstərən hər kəs qondarma ittihamlarla təqib olunur, həbsə atılır və bəzi hallarda hətta qətlə yetirilir.

- Ölkəmizdə son 31 ildə keçirilmiş bütün parlament, bələdiyyə və prezident seçkilərinin, o cümlədən bütün referendumların nəticələri saxtalaşdırılıb. Bu fakt ATƏT və digər beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənib.

- Azərbaycan Respublikası rəhbərlərinin məşhur "kürü diplomatiyası", "Panama kağızları" və "2.9 milyard dollarlıq Azərbaycan landromatı" qalmaqalları da bütün dünyaya məlumdur.

- Mövcud idarəetmə qanunsuz üsullarla zəbt etdiyi hakimiyyəti əldə saxlamaq üçün ölkədə 3 dəfə saxta referendum keçirmiş və ölkə Konstitusiyasını özlərinin arzu və istəklərinə uyğunlaşdırmışdır.

- 18 mart 2009-cü il tarixli saxta referendumla İlham Əliyevin Konstitusiya ilə ömürlük prezident olması təmin edilmiş, "bir şəxsin iki dəfədən artıq prezident seçilməsinin qadağan edilməsi" barədə müddəa Konstitusiyadan çıxarılmışdır.

- 26 sentyabr 2016-cı ildə keçirilən son saxta referendumla İlham Əliyev bir sıra digər əlavə imtiyazlarla yanaşı, həm də heç bir səbəb göstərmədən, özü üçün "növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilmək hüququ" tanımışdır.

- İlham Əliyev arvadı Mehriban Arif qızı Əliyevanı Birinci vitse-prezident vəzifəsinə təyin etməklə hakimiyyəti tam olaraq ailəsinin inhisarına almışdır.

- Azərbaycan Respublikasının Seçki Məcəlləsi və seçki qanunvericiliyi, ali icra hakimiyyətinin birbaşa nəzarəti altında olan Mərkəzi Seçki Komissiyası (MSK) və digər seçki orqanları demokratik, azad və ədalətli seçki keçirməyə imkan vermir.

- Azərbaycan Respublikası hüquq müstəvisindən çıxmış, milli və beynəlxalq qanunvericiliyə tabe olmayan ailə hakimiyyəti formasında idarə olunan təsisata çevrilmişdir.

**Həm də nəzərə alaraq ki:**

- Bəzi avropalı parlamentarilərin də rüşvət və sair müqabilində dəstək verdiyi hakimiyyət Azərbaycan xalqını son 31 ildə mütləqiyyət rejimində yaşamağa məhkum etməklə, ölkənin

milli sərvətlərini talamaqla yanaşı, insanları fərqli mövqelərinə görə təqib edir, onlara fiziki və mənəvi işgəncələr verir, fiziki olaraq məhv edir.

- Azərbaycan xalqı özünün şərəfli tarixi ilə azadlıq sevən xalq olduğunu, demokratik ənənələrə (1918 -1920 -ci illərdə müsəlman Şərqində ilk demokratik Cümhuriyyət qurmaqla), milli və dini tolerantlığa sadiq xalq olduğunu sübut edib.

- Azərbaycan xalqı bütün dinlərə dözümlülüklə yanaşan və müxtəlif xalqlarla bir arada sülh içində yaşamağı bacaran xalqdır.

- Azərbaycan xalqının mütləq əksəriyyəti demokratiya, qanunun aliliyi, insan haqq və azadlıqları kimi dünyəvi dəyərlərə sadiqdir.

**Eyni zamanda, nəzərə alaraq ki:**

- İndiki rejimin qanunsuz hərəkətlərinə xalqımızın susması, kütləvi surətdə etiraz tədbirlərinə çıxmaması düşdüyü vəziyyətlə barışması kimi qəbul edilməməli, əksinə indiki rejimin qəddarlığının, zalımlığının, özbaşınalığının nəticəsi kimi qiymətləndirilməlidir.

**Qeyd edilənlərdən irəli gələrək Biz:**

1. **Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan:**

- Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır (maddə 1).
- Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur (maddə 2).
- Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur (maddə 4).
- Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir (maddə 6).
- Hər bir vətəndaşın dövlətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirak hüququ (maddə 54 və 55) və digər konstitutsion hüquq və prinsipləri,

2. **Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində nəzərdə tutulan müasir beynəlxalq hüququn əsas prinsip və müddəalarını (maddə 1 və maddə 2),**

3. **Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt"ında nəzərdə tutulan:**

- Bütün xalqlar öz müqəddəratını təyinetmə hüququna malikdirlər. Bu hüquq sayəsində onlar öz siyasi statuslarını sərbəst müəyyən edir və öz iqtisadi, sosial və mədəni inkişaflarını sərbəst təmin edirlər (maddə 1.1),

- Bütün xalqlar öz məqsədlərinə nail olmaq üçün qarşılıqlı fayda prinsiplərinə əsaslanan beynəlxalq əməkdaşlıqdan və beynəlxalq hüquqdan irəli gələn hər hansı bir öhdəliyə ziyan vurmadan öz təbii sərvətləri və ehtiyatlarını sərbəst şəkildə sərf edə bilərlər. Heç bir xalq heç bir halda ona məxsus olan dolanışıq vəsaitlərindən məhrum edilə bilməz (maddə 1.2.),

- Hazırkı Paktda iştirak edən hər bir dövlət onun ərazisi hüdudlarında və onun yurisdiksiyası altında olan bütün şəxslərin hazırkı Paktda qəbul edilən hüquqlarına, irqi, dərisinin rəngi, cinsi, dili, həmçinin dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və digər halları ilə bağlı əlamətlərinə heç bir fərq qoymadan hörmət etməyi, onların bu hüquqlarını təmin etməyı öhdəsinə götürür (maddə 2.1.) həm də sair hüquq və prinsipləri.

4. **"İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası və ona əlavə olunan Prokollarda nəzərdə tutulan:**
   - İnsan hüquqlarına hörmət olunması öhdəliyi (maddə 1),
   - Yaşamaq hüququ (maddə 2),
   - İşgəncələrin qadağan olunması (maddə 3),
   - Azadlıq və toxunulmazlıq hüququ (maddə 5),
   - Ədalətli məhkəmə hüququ (maddə 6),
   - İfadə Azadlığı (maddə 10),
   - Azad seçki hüququ (1 saylı Protokolun 3-cü maddəsi)

   **Yuxarıdakı hüquqları əsas tutaraq:**

Siyasi sahədə:

- Ölkədə parlamentli respublika ənənələrinin bərpa edilməsi,
- Konstitusiya islahatlarının aparılması,
- Bütün səviyyələr üzrə qanuni seçkilərin keçirilməsi, seçki qanunvericiliyini pozanların cinayət məsuliyyətinə cəlb edilməsinin təmini,
- Bir nəfərin iki dəfədən artıq ard-arda prezident vəzifəsinə seçilməsinin, hakimiyyətin bir əldə cəmləşməsinin, eyni ailə üzvlərinin bir-birinin tabeliyində olan vəzifələrdə olmasının, dövlət strukturlarında qohumbazlıq, vərəsəlik, klan, region faktorlarının qadağan edilməsi, həmçinin bu qadağaları pozanlara qarşı ciddi cinayət məsuliyyətinin müəyyən edilməsi,
- Geniş xalq kütlələrinin təşkilatlanması və siyasi proseslərə cəlb olunması, dövlətin siyasi həyatında iştirakının təmin edilməsi,
- Hüquqi dövlət, qanunun aliliyi, insan hüquq və azadlqlarının təmin edilməsi,
- Normativ hüquq aktlarının icrası üzərində nəzarətin təşkili və dövlət intizamının gücləndirilməsi,
- Qanunvericiliyin humanistləşdirilməsi və ədalətliliyin təmin edilməsi,
- Dünyanın sivil xalqlarının demokratiya, insan haqları və azadlıqları, qanunun aliliyi kimi dəyərlərinə sahiblənmək,

Hüquq sahəsində:

- Hüquq-mühafizə orqanlarının hakimiyyətin dəyənəyi rolunda deyil, xalqın xidmətçisi və mühafizəçisi olması, işgəncə hallarının yolverilməzliyi,
- Polis zorakılığı və özbaşınalığının aradan qaldırılması,
- İbtidai və məhkəmə istintaqında müdafiə hüququnun effektli təminatı,
- Vəkillik institutunun hakimiyyətin nəzarəti və təzyiqi altından çıxarılması,
- Əsaslı məhkəmə islahatlarının aparılması, məhkəmələrin müstəqilliyinin təmin edilməsi,
- Qanunvericilik və məhkəmə hakimiyyətinin ali icra hakimiyyətindən (Prezidentdən) faktiki asılılığının ləğv edilməsi,
- Bütün dustaqları əhatə edəcək amnistiyanın verilməsinə nail olmaq, həbsxanada dustaqların saxlanma şəraitinin yaxşılaşdırılması,
- Nardaran, Bənəniyar, Eurovision, Gəncə, Quba, İsmayıllı və başqa rayonlarda törədilmiş cinayətlərin araşdırılması,
- Sərhədyanı yaşayış məntəqələri ilə bağlı onlara "qəhrəman şəhər" fəxri adların və vergi güzəştlərini nəzərdə tutan qanun layhiyəsinin hazırlanması,
- Arxivlərin açılması, "Lüstrasiya haqqında" və "Kolaborantlığa qarşı mübarizə haqqında" qanunun qəbul edilməsi,

İnsan hüquqları sahəsində:

- Mövcud olan diskriminasiya hallarının bütün səviyyələrdə kökünün kəsilməsi,
- Siyasi və vicdan məhbusları haqqında qanunsuz qərarlar qəbul etmiş müstəntiq, prokuror və hakimlərin cəzalandırılması, belə halların təkrarlanmaması üçün mövcud hüquqi mexanizmlərin tətbiqi, bəraət almış şəxslərə Azərbaycan dövləti tərəfindən və Avropa Məhkəməsinin qərarı ilə ayrı-ayrı şəxslərə ödənilən kompensasiya məbləğlərinin təqsirkar vəzifəli şəxslərdən və hakimlərdən reqres iddia yolu ilə alınması.
- Həbs olunan jurnalistlərin dərhal azad edilməsi, media və söz azadlığının təmin edilməsi, müstəqil medianın inkişafına dövlət dəstəyinin hüquqi bazasının təkmilləşdirilməsi,
- Dini və siyasi mövqeyinə, həmçinin etnik azlıqların öz mədəni hüquqları istiqamətində fəaliyyətinə görə şərlənərək həbs edilmiş şəxslərin dərhal azadlığa buraxılması və gələcəkdə belə halların yolverilməzliyi,
- Pasport və şəxsiyyət vəsiqələrində hicablı fotoşəkil qadağasının aradan qaldırılması,
- Yerli xalqlara münasibətdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı "Milli azlıqların müdafiəsi haqqında" Avropa Şurasının Çərçivə Sazişində nəzərdə tutulan hüquqların təmin edilməsi, "Reqional və azlıqların dilləri haqqında" Avropa Xartiyasına qoşulması, dövlət dili ilə yanaşı ana dilinin inkişafının təşviq edilməsi, xarici dillərin tədrisinə dövlət müdaxiləsinin aradan qaldırılması,

Korrupsiya və rüşvətlə mübarizə sahəsində:

- Məmurların maddi-əmlak vəziyyəti ilə bağlı məcburi illik (gəlir mənbələrini göstərən) bəyannamə sisteminin yaradılması; korrupsiya, rüşvət mexanizminə qarşı təsirli hüquqi sanksiyaların qoyulması,

- Ölkədə tüğyan edən rüşvət və korrupsiyanın kökünün kəsilməsi və belə əməllərə görə ən ağır cəzaların müəyyən edilməsi,
- Bütün sahələrdə və səviyyələrdə inhisarçılığın kökünün kəsilməsi,
- Xalqdan oğurlanmış sərvətlərin geriyə qaytarılması və xalqın rifahına yönəlik islahatlara yönləndirilməsi,

İnzibati-iqtisadi islahatlar sahəsində:

- Sovet inzibati ərazi bölgü sistemindən imtina, inzibati ərazi islahatlarının aparılması, yerli özünüidarə institutunun, respublikanın bütün inzibati ərazi vahidlərinin bərabər və proporsional inkişafının təmini,
- Avropa "Yerli özünüidarəetmə Xartiyası"nın prinsiplərinin tələblərinə uyğun ölkədə bələdiyyələrin gerçək fəaliyyətinin təmin edilməsi,
- İcra Hakimiyyəti strukturunun ləğvi və valilik institutunun yaradılması, valilik haqqında qanunun qəbul edilməsi,
- Azad bazar iqtisadiyyatına yönəlik biznes mühitinə, orta təbəqənin formalaşdırılmasına, yoxsulluqla mübarizəyə, gömrük və vergi sistemində şəffaflığa, qanuni əsaslarla əldə edilmiş mülkiyyət hüququna təminatın verilməsi,
- Azad və rəqabətli iqtisadi şəraitin yaradılması,
- Ölkənin ərzaq təhlükəsizliyi üçün yerli istehsalın stimullaşdırılması, xaricdən idxal olunan məhsulların keyfiyyətinə nəzarətin gücləndirilməsi,
- Yerli istehsalın inkişafı və özünütəminin stimullaşdırılması, daxili bazarın və milli istehsalçıların mənafelərinin qorunması,
- Daxili bazarda bahalaşmanın əsas səbəbi olan məmur möhtəkirliyinin işlək qanun mexanizmi ilə aradan qaldırılması,
- Bölgələrdə iqtisadi inkişafı stimullaşdırmaq üçün mikro, kiçik və orta sahibkarlığın, qoyulmuş investisiya geri götürülənədək vergilərdən azad edilməsi və güzəştlərin tətbiq olunması,
- Hər rayonun öz istehsal potensialına uyğun olaraq inkişaf proqramının qəbul edilməsi,

Sosial siyasət sahəsində:

- Vətəndaş cəmiyyəti və vətəndaş harmoniyasına yönəlik, insan mərkəzli sosial təminat dövlətinin qurulması,
- İşsizliyin ləğvi və azaldılmasına dair real proqramların hazırlanması və həyata keçirilməsi,
- Dövlətin uşaqlara və təqaüdçülərə qayğı sisteminin yaradılması,
- Xalqın mənafeyinə yönəlik yeni pensiya qanununun qəbul edilməsi,
- Uşaqların sosial müdafiəsi ilə bağlı qanunun (uşaq pulu) qəbul edilməsi,
- Qadınların iqtisadi müstəqilliyinin təmin edilməsi, onlara qarşı törədilən məişət zorakılığının və sair cinayətlərin kökünün kəsilməsi, evdar qadınlara "analıq pensiyası"nın verilməsinin təmin edilməsi, qadının cəmiyyətimizdəki rolunun yüksəldilməsi,
- "Əlilliyin təyin edilməsi və qiymətləndirilməsi barədə" qanunvericiliyin əlillərin mənafeyinə uyğun təkmilləşdirilməsi və humanistləşdirilməsi,

- “Qazilik statusu haqqında” qanunun qəbul edilməsi, müharibə veteranlarına minimum əmək haqqı, müharibə əlillərinə və şəhid ailələrinə orta aylıq əmək haqqı məbləğində əlavə təqaüdlərin verilməsi,
- Əhalinin mənzil probleminin həlli üçün dövlət səviyyəsində proqramların həyata keçirilməsi, evsiz ailələr, yeni ailə quran gənclər və əlillərin dövlət hesabına mənzillə təmin olunması,
- Xüsusi təyinatlı torpaqlar istisna olmaqla, bütün özbaşına tikililərin ən qısa müddətdə sənədləşdirilməsi,
- İşsiz insanların işsizlik dövründə minimum istehlak səbəti dəyərində sosial müavinətlə təmin edilməsi və məşğulluq haqqında qanunvericiliyin vətəndaşın mənafeyinə uyğun humanistləşdirilməsi,
- Milli gəlirdən, təbii sərvətlərdən (neft, qaz və s.) büdcəyə daxil olan vəsaitdən hər vətəndaşa hər ilin sonunda bərabər şəkildə payın verilməsi,
- Kommunal xərclərin azaldılması istiqamətində ardıcıl siyasətin yürüdülməsi,
- Əhalinin ödəmə qabiliyyətini nəzərə alaraq kredit faizlərinin endirilməsi,
- Qəbiristanlıq torpaqlarının tam olaraq yerli bələdiyyələrin sərəncamına verilməsi,

Vətəndaşlıq problemləri sahəsində:

- Ölkədən kənarda yaşamağa təhrik edilmiş vətəndaşlara dövlət qayğısının təşkili,
- İqtisadi dözümsüzlük səbəbindən ölkədən didərgin düşmüş vətəndaşların ölkəyə qayıtmasını stimullaşdırmaq üçün işlək qanun mexanizminin yaradılması,
- Quru sərhədlərin təcili açılması və vətəndaşların ölkəyə qayıtmasına maneələrin aradan qaldırılması,
- Vətəndaşlıqdan məhrum etmənin qadağan edilməsi, əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş şəxslərin vətəndaşlığının bərpasının sadələşdirilməsi, ikili və çox vətəndaşlığın tanınması və onlara, prezidentliyə namizəd verilmə istisna olmaqla, bütün seçkilərdə tam hüquqlu vətəndaş kimi iştirak hüququnun verilməsi,
- Avia sərnişin daşınmalarında azad rəqabətin formalaşdırlması yolu ilə qiymətlərin endirilməsinə nail olmaq,

Beynəlxalq münasibətlər sahəsində:

- Regional geosiyasi münasibətlərin normallaşdırılması,
- Qonşu xalqlara və dövlətlərə münasibətdə dövlətlərin ərazi bütövlüyünün tanınması, insan hüquqlarına hörmət, qarşılıqlı əməkdaşlıq və beynəlxlaq hüququn digər qəbul edilmiş ümumi prinsiplərinə sədaqət nümayişi,

Ekologiya və təbiətin mühafizəsi sahəsində:

- Ətraf mühitin qorunması ilə bağlı qanunvericiliyin tətbiqi üzərində nəzarətin gücləndirilməsi,
- Atmosferə atılan zərərli qazların azaldılması üçün ölkədə istehsal olunan benzin və dizelin keyfiyyətinin yüksəldilməsi və qiymətlərin əhalinin alıcılıq qabiliyyətinə uyğunlaşdırılması,

- Gədəbəyin Söyüdlü kəndi ərazisindəki qızıl mədənlərində istifadə edilən sianidin gölə tökülməsinin qarşısının alınması, ölkə ərazisində iqlimin, havanın, torpağın münbit qatı və suların çirklənməsi, həmçinin zəhərlənməsinə yönəlik zərərli istehsal sahələrinin ləğvi,
- İstismardan çıxarılmış neft quyularının ISO standartlarına uyğun olaraq təmizlənməsi və konservasiyası,
- Təbii obyektlərin (dəniz kənarı sahillər, çay sahilləri, çimərliklər, meşələr, dağlar, otlaq və örüş yerləri, xüsusi rejimli mühafizə zolaqları torpaqları, yeraltı sərvətlərin yerləşdiyi torpaqlar və s. ) məmur işğalından azad edilərək bələdiyyələr vasitəsilə xalqın istifadəsinə qaytarılması,

Hərbi sahədə:

- Hərbi cinayətlərin qarşısının alınması və islahatların aparılması, Hərbi Prokurorluğun ləğv edilməsi və 2005-ci ildən başlayaraq Hərbi Prokurorluğun apardığı bütün işlərin yoxlanılması,
- Beynəlxalq aləmdə "Tərtər işi" kimi tanınan əsrin cinayətinə ədalətin gətirilməsi üçün xüsusi qanunun qəbul edilməsi,
- 4 İyun 1993-cü ildən sonra baş vermiş bütün əsgər və xüsusi orqan əməkdaşlarının ölüm səbəblərinin araşdırılması,
- Məcburi hərbi xidmətlə yanaşı peşəkar (muzdlu) ordu sisteminin yaradılması,
- Ordu zabitlərinin və gizir heyətinin qısa müddətdə mənzillə təmin olunması, ordudakı əmək haqqı sisteminin Avropa standartlarına uyğunlaşdırılması,

Təhsil və səhiyyə sahəsində:

- Ölkədə təhsil və səhiyyənin ümumi səviyyəsinin yüksəldilməsi, müəllimlərə "dövlət qulluqçusu" statusunun verilməsi, onların və həkimlərin maaşlarının real iqtisadi ehtiyaclara adekvatlığının, təhsilin bütün səviyyələrdə ölkə vətəndaşları üçün ödənişsiz olmasının təmin edilməsi, müəllimin cəmiyyətimizdə itirilmiş nüfuzunun bərpası üçün tədbirlərin görülməsi, onların seçki komissiyalarında iştirakının qadağan edilməsi,
- Dövlət məktəblərində dil siyasətinə ciddi nəzarətin formalaşdırlması, dövlət müəssisələrinə işə qəbul zamanı dövlət dilinin əsas götürülməsi,
- Avropa standartlarına uyğun peşə təhsili müəsissələrinin (litseylər ) yaradılması üçün ciddi addımların atılması,
- Ümummilli təhsil proqramının, dünyanın inkişaf etmiş təhsil modellərindən birinə transformasiyası,
- İT sahəsində yeni texnologiyaların və süni intellektin inkişaf etdirilməsi istiqamətində qanun layihəsinin hazırlanması,

Məramı ilə

**<u>Azərbaycan Xalq Parlamentinin yaradılmasına qərar verdik.</u>**

Azərbaycan Xalq Parlamentinin təsisçiləri: